# Ədəbiyyat bağçasında bahar təravəti

*(Bahar Bəxtiyarqızının həyatı və yaradıcılığı haqqında)*

***Bahar Bəxtiyarqızı 13 mart 1992-ci ildə Bakı şəhərində anadan olub. Əslən Sabirabad rayonundan olan müəllif hazırda Bakı şəhərində yaşayır və yaradıcılıq fəaliyyətini burada davam etdirir. Orta təhsilini Bakı şəhəri 49 nömrəli İntellekt liseyində alan Bahar Bəxtiyarqızı uşaq yaşlarından ədəbiyyata xüsusi maraq göstərib. Onun sözə, düşüncəyə və insanın daxili dünyasına olan həssas münasibəti hələ erkən yaşlarından formalaşıb.***

Müəllif 13 yaşından etibarən bədii ədəbiyyat oxumağa başlamış, paralel olaraq yazı ilə məşğul olmuşdur. Uzun illər yazarlıq fəaliyyəti Bahar Bəxtiyarqızı üçün daha çox şəxsi yaradıcılıq mərhələsi kimi davam edib. Bu dövrdə o, düşüncələrini, hisslərini və daxili müşahidələrini gündəlik qeydlər, bədii parçalar və esselər formasında qələmə alaraq öz ədəbi dünyasını formalaşdırıb. Müəllifin oxucu ilə ilk rəsmi görüşü isə 2024-cü ildə baş tutub. Həmin ildə onun ilk kitabı - "Əlvida deməyə tələsmə" - işıq üzü görüb. "Əlvida deməyə tələsmə" insanın daxili aləminə yönəlmiş, ayrılıqla barışa bilməyən hisslərin bədii ifadəsidir. Əsərdə sevgi və itki, gözləmə və ümid, yarımçıq qalan münasibətlərin yaratdığı psixoloji çarpışmalar ön plandadır. Müəllif oxucunu tələsmədən düşünməyə, hisslərini dinləməyə və bəzən "əlvida" deməyin çıxış yolu olmadığını anlamağa



səsləyir. Kitab duyğularla düşüncənin harmoniyasını qoruyaraq oxucuda dərin emosional təsir yaradır.

Bəxtiyarqızının bu kitabının ilk qələm təcrübəsi olmasına baxmayaraq, qısa zamanda oxucular tərəfindən böyük rəğbətlə qarşılandı. Bu əsər zamanla müəllifin ədəbi yolunda bir növ vizit kartına çevrildi. Hətta Bahar Bəxtiyarqızını tanıyanlar onu çox vaxt "Əlvida deməyə tələsmə kitabının müəllifi Bahar xanım" kimi təqdim edirdilər.

Oxucuların bu səmimi sevgisi və marağı Bahar xanımı daha da ruhlandırdı və o, ikinci kitabını qələmə almağa başladı. Bundan əlavə, Bahar Bəxtiyarqızı 2024-cü ildə Avand Production tərəfindən təşkil olunan tədbirdə "Gənc yazar" nominasiyası ilə təltif olunaraq yaradıcılığına verilən dəyəri bir daha təsdiqlədi.

Bahar Bəxtiyarqızının ikinci kitabı - "Əslində mən kiməm?" müəllifin daxili dünyaya açılan daha dərin və fəlsəfi axtarışlarının məhsuludur. Kitab boyu səslənən bu sual insanın öz varlığı, kimliyi və mənəvi bütövlüyü ilə bağlı düşüncələr fonunda cavablandırılır. Əsərdə bəzən ağrılı etiraflar, bəzən isə ümidverici fikirlər oxucunu öz daxili aləmi ilə üz-üzə qoyur. Səmimi dil və psixoloji dərinlik oxucunu sadəcə müşahidəçi deyil, bu daxili dialoqun bir hissəsinə çevirir. Kitab hər kəsin içində gizli qalan "mən"i oyatmaq, insanı öz həqiqətləri ilə üzləşdirmək gücünə malikdir.

"Əslində, mən kiməm?" kitabı Bahar Bəxtiyarqızının ədəbi yolunda yeni bir mərhələnin başlanğıcı oldu. Bu əsər müəllifə təkcə oxucu sevgisi deyil, eyni zamanda ciddi ədəbi uğurlar da qazandırdı. Kitabın yaratdığı rezonans nəticəsində Bahar Bəxtiyarqızı 2025-ci ildə artıq dünya miqyasında populyarlıq qazanmış, ədəbiyyat və kitabçılıq sahəsində ən prestijli ödüllərdən biri olan "Ziyadar" Mükafatı ilə təltif olundu. 2026-cı ildə isə Gənc Yazarlar Qurumunun təşkil etdiyi Milli Uğur Mükafatı çərçivəsində "İlin müəllifi" adına layiq görülüdü. Dərin məzmunu və səmimi dili ilə seçilən "Əslində mən kiməm?" oxucular tərəfindən böyük maraqla qarşılandı, qısa zamanda geniş auditoriyanın rəğbətini qazanaraq müəllifin yaradıcılığında özünəməxsus yer tutdu.

Ümumilikdə Bahar Bəxtiyarqızının yaradıcılığında psixoloji mövzular, insanın daxili aləmi, mənəvi axtarışlar və duyğuların incə təhlili əsas xətti təşkil edir. Onun əsərləri oxucunu dərin düşüncələrə sövq edir, insanın özünə ünvanladığı sualları yenidən gündəmə gətirir. Müəllifin ədəbi dili səmimiliyi, sadəliyi və axıcılığı ilə seçilir ki, bu da yaradıcılığını oxucu üçün anlaşılan və təsirli edir. Bu ədəbi üslub və mövzu dərinliyi təsadüfi deyil. Bahar Bəxtiyarqızı yaradıcılıq fəaliyyəti ilə paralel olaraq öz üzərində sistemli şəkildə çalışmış, bilik və bacarıqlarını daim inkişaf etdirməyə xüsusi önəm vermişdir. O, müxtəlif seminar və kurslarda iştirak etmiş, diksiya və nitq mədəniyyəti üzrə təlimlər almışdır. Eyni zamanda bir çox tanınmış yazarların keçirdiyi seminar və təlimlərə qatılaraq ədəbi təcrübəsini zənginləşdirmiş, ədəbiyyat sahəsində nəzəri və praktiki biliklərini genişləndirmişdir.

Davamlı özünüinkişaf və yenilənmə Bahar Bəxtiyarqızının yaradıcılıq yolunun əsas prinsiplərindən biridir. O, əldə etdiyi bilik və təcrübələri yaradıcılığına tətbiq edərək oxucuya daha dərin, düşünülmüş və yetkin əsərlər təqdim etməyə çalışır. Hazırda Bahar Bəxtiyarqızı yaradıcılıq fəaliyyətini davam etdirir və üçüncü kitabı üzərində çalışır. Yeni əsərində də müəllif insan psixologiyasına, daxili ziddiyyətlərə və mənəvi axtarışlara sadiq qalaraq oxucunu daha dərin düşüncə qatlarına dəvət etməyi qarşısına məqsəd qoyub. Yazı prosesi davam edən bu kitabın müəllifin yaradıcılıq yolunda yeni və əhəmiyyətli mərhələ olacağı gözlənilir.

*Günnur Ağayeva,*
*ədəbiyyatşünas-tənqidçi*